# Qobustan pirləri









**Qobustan ərazisində pirlər çoxdur. Qayalar üzərində qədim şəkillərin çoxunun totemizmlə əlaqəli olması, Kərkəz, Şonqar , Kənizə, Cingir baba kimi müəyyən etiqadlarla bağlı dağ adlarının saxlanması bu ərazidə vaxtilə pirlər şəbəkəsinin çoxluğunu göstərir . Qobustan və onun ətrafında yerləşən ərazilərdə Şeyx baba, Diri baba, Sofi Həmid, Sofi Novruz, Qara atlı, Cörmə baba, Hürü qızlar, Yel piri və s. pir və ziyarətgahların bir qismi sufizm təriqəti ilə bağlıdır.**

Çörmə piri Kiçikdaş dağının ətəyində yerləşir. Fasad hissəsi Kiçikdaş dağına yönəldiyi üçün el arasında "Çörmə piri" adlandırılmışdır.

Qobustan pirlərindən biri - Hürü qızları Əliqulu qışlağında yerləşir . Rəvayətlərə görə, burada Hürü qızları dəfn edilib.Xəstəlikdən, baş ağrılarından qurtarmaq üçün bura çoxlu zəvvarlar, şəfa tapmaq üçün ziyarətçilər gəlir.

Şəfa tapmaq üçün ziyarətçilərin üz tutduğu məkanlardan biri də Hacı qışlağında yerləşən Sarıbaba piridir.Bu pirdə də qəbrin üstünə su ilə dolu qab qoyulur. Şəfa dalınca gələn zəvvarlar pirin torpağından götürüb suya qatır və bədənlərinə çəkirlər.

**Yel piri Nəhər qışlağında yerləşir. Nəzir vermək, şəfa tapmaq üçün bura çoxlu ziyarətçilər gəlir.**

Səngəçal və Umbakı qəsəbələri arasında kiçik dağlarla əhatələnmiş sahədə Sofi Həmid piri yerləşir. Qəbristanlıqda Sofu Həmid adlı müqəddəs bir qocanın qəbridir. Qəbrin üstündə ağ daşdan, çöldən kub şəkilli gümbəzə malik məqbərə tikilib. Yerli sakinlərin söylədikləri fərziyyələrə görə, Sofi Həmid Azərbaycana Ərəbistandan gəlmişdir.O, öz müridlərinə vəsiyyət edib ki, onu dəvənin yatacağı yerdə dəfn etsinlər. Müridlər onun vəsiyyətinə əməl edirlər və tezliklə bu məzar pirə çevrilir. Məzarı üzərindəki daş hasara alınmış ərazidə əbədiyyət rəmzi olan ağ dəvə heykəli ona inam gətirənlərin məhəbbət ifadəsi hesab edilir. Sofi Həmid pirini məşhurlaşdıran əlamətlərdən biri də ətrafdakı qəbirstanlıqda olan əlvan boyalı məzar daşlarıdır.

Sofu Novruz piri adi qəbiristanlıqda kiçik, dördbucaqlı məqbərə içində, deyilənə görə, Sofu Novruz adlı mömin və müqəddəs bir şəxsin qəbridir. Qəbiristanlığın çox geniş sahəsində, yolun sol hissəsində qəbirlərin hamısı qədimdir. Onların çoxunun üzərində müxtəlif formalı işarə və damğalar qazılmışdır. Qobustan qoruğu ərazisindəki Böyükdaş, Kiçikdaş və Cingirdağ sahəsinin qayaları və yaxın ərazilərdəki son əsrlərin qəbir daşları üzərində qeydə alınmış işarə və damğalardan fərqlidir.

Kiçikdaş dağının cənubunda "Qara atlı" piri yerləşir. Bu pirin yaranması "Qara atlı" qəbiristanlığındakı at fiquru şəklində olan qəbir daşı ilə əlaqədardır. Həmin daş at bədənini xatırladır. "Qara atlı" piri xalq arasında uzun sürən pis xəstəliklərdən azad olma piri sayılırdı. Hələ də işlərinin düzəlməsi, xəstəlikdən azad olması, övlad arzusuna çatılması, bəxtin açılması üçün bu pirə nəzir deyən və ibadətə gələnlər var.



**Qobustan ərazisində pirlər və ziyarətgahların yerləşməsi bir daha sübut edir ki, bu torpaqlar müqəddəs insanların yaşayış yerləri olmuşdur.**

**Arifə QURBANOVA**

**Azad Azərbaycan.- 2022- ci il.- 30 dekabr.- S. 8.**